

Sevinc Nuruqızı



## AZƏRBAYCAN

Zirvələri ağappaq
Buludlara dirənən.
Çayları kəmər kimi
Qoynu ilə sürünən.
Şuşasından baxanda
Əl içitək görünən
Azərbaycanım.

Hər ayağın izində
Bir bulağı qaynayan.
Səmasında şimşəklər
Qılınc kimi oynayan.
Torpağı dörd bir yana
Alov, ataş paylayan
Azərbaycanım.

Ulduzları göllərin
Aynasında sayrışan.
Qonağa sinə açan
Nemətilə paylaşan.
- Haydı igidlər, - deyib
Savaşlarda haylaşan
Azərbaycanım.

## BAX, BU VƏTƏNDİR!

Ay çıxıb yenə
Səma bəmbəyaz.
Ulduzlar parpar
Heç bir diyarda
Belə parlamaz.
Necə xoşbəxtdir,
Nə seviləndir,
Bax, bu Vətəndir!

Yağışlarıyla
Səadət yağar.
Bizə səmadan
Ulduzlar baxar.
Çiçəyi gözəl
Çəməni yaşıl.
Ayı, Günəşi
Ona yaraşır.
Üzü, dodağı
Gözü güləndir.
Bax, bu Vətəndir!

Sırğa-sırğadır
Gilənarları.
Çatlayıb gilə
Gilə narları.
Salxım söyüdü
Xan çinarları
Başqa hansı bir
Yerdə bitəndir?!
Bax, bu Vətəndir!

Zəmisinə bax
Günəşdən sarı.
Yay-qış ərimәz
Dağının qarı.
Min rəngə çalır
Yazı-baharı.
Onsuz yaşamaq
Ah... Nə çətindir
Bax, bu Vətəndir!



## ARI

Bala-bala bal yığır
Xortumu ballı arı.
Sarıqarın, tülqanad
Saçı sığallı arı.
Çiçəklər, kəpənəklər
Otlar tanıyır onu.
Çəməndə pərbüzənlər
Atlar tanıyır onu.

Bapbalaca, ballıca
Bəstəboy, sarı arı.
Barmağımı balına
Batırım, barı, arı.

Bəh-bəh, balın bal dadır
Bir ballı yaxmac yedim.
Sağ ol, zəhmətkeş arı
Balın bol olsun, - dedim.



## KÖRPƏ GÜLÜŞÜ

Albalılar çiçəklədi
Gülüşündən.
Yer üzünə bahar gəldi
Güldün, körpə dodağından
Dünyamıza nur çiləndi.
Günəş güldü göy üzündə
Ay sevindi.
Quru səhra yaşıllaşdı.
Çay sevindi.
Ötdü quşlar, nəğmələri
Mehə döndü.
Təbəssümün, çiçəklərin
Yanağında şehə döndü.
Körpə gülür, - dedi sellər
Körpə gülür, - dedi yellər.
Silahların səsi batdı
Üfüqdə al günəş doğub
Göy üzündə tonqal çatdı.
Savaş dondu bir anlığa
Od səngidi
Bu təbəssüm, körpə qızın
Dünya üçün toxuduğu
Əlvan çiçək çələngidi

## BAĞDA

Gecə bağa
Kim nə atdı?
Tappıltı
Məni oyatdı.
Tap, tap, tap
Bağa qaçdım.
Çatan kimi
Sirri açdım.
Ağacdan alma
Düşmüşdü.
Almalar
Sarı kişmişdi.
Yığdım cib-cib
Qucaq-qucaq.
Alma hamıya
Catacaq.



## ALÇALAR

Çiçəkləyibdir alçalar
Çiçəkləri ağappaq qar.
Elə bil ki, səpələnib
Çəmənlərə ağ papaqlar.

Ya buludlar enib yerə
Çəmənlikdə yatıb qalıb.
Ya da pambıq tayaları
Bal yuxuya batıb qalıb.

Külək əsir, qanadlanıb
Uçuşurlar ağ ləçəklər.
Sanki bütün Yer üzündən
Axışıb ağ kəpənəklər.

Çiçəkləyibdir alçalar
Çiçəkləri ağappaq qar.
Elə bil ki, səpələnib
Çəmənlərə ağ papaqlar.

## NİYƏCİK

Niyə batmır gəmilər?
Gəmilərdə üzəndə
Qorxmurlarmı əmilər?
Quşlar niyə çəkməsiz
Dolaşırlar soyuqda?
Papaq qoymur
Kürk geymir
Dələ donmur oyuqda?
Kim getdi, niyə getdi.
Nə bitdi
Niyə bitdi?
Ulduzları kim asıb
Səmaya dənə-dənə?
Günəş niyə yumrudur
Soruşur dönə-dönə.
Göydən yağan yağışı
Kim tökür, niyə tökür?
Kim aparır günəşi
Göyü gecəyə bükür?
Qatar hara tələsir
Külək niyə bərk əsir?
Sərçə tək cikkildəyir.
Hey soruşur: - Cik, cik,cik
Bu sualları hardan
Tapır axı niyəcik?



## SAĞICI

Süd sağır nənə
Süd şırım-şırım.
Hər bir şırımı
Bir fincan yarım.
Nənə nəğmə də
Deyir inəyə.
Tez-tez sığalı
Dəyir inəyə.
- Qaragöz qızım,
Ceyranım, - deyir.
- Südüm, qatığım,
Ayranım, - deyir.
İnəyin gözü
Nazla süzülür.
Süd şırım-şırım,
Xətt-xətt düzülür.
Ağ-ağ köpüklər
Qovur bir-birin.
Dolmur bu vedrə
Nə yaman dərin.
Buzovun gözü
Qalıb nənədə.
İstəyir desin:
- Hamısın sağma,
Saxla mənə də.

## NƏĞMƏ

Quşlarla birgə
Oxuyuram mən:
- Sabahın xeyir,
Ey əziz Vətən.

Nəğməm ucalır
Mavi səmaya.
Yerdən Günəşə
Ulduza, Aya.

Küləklər alıb
Uçurdur, bir bax,
Nəğməm yağışla
Yerə yağacaq.

İçəcək onu
Hər gül, hər çiçək.
Dostlar, Vətənə
Nəğmələr deyək.